*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 may 2018-ci il № 38 (2254) Qiymət i 25 qəpik

# Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində yaradılan şəraitlə tanışlıq

## Prezident, Ali Baş Komandan İlham Əliyev yeni hərbi xəstəxananın açılışını edib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində yaradılan şəraitlə tanış olub.*

Ölkəmizdə yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında da böyük əhəmiyyətə malik layihələr icra olunub. Bu gün muxtar respublikanın müdafiə potensialı və gücü durmadan artır. Ümumilikdə, ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu gün hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədədir, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə təmin olunması ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıb. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və həmin təlimlərdə ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilib. Son illərdə ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində də əməli tədbirlər görülüb. Dövlətimizin başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu.

Ali Baş Komandana "ORBİTER-3B" pilotsuz uçuş aparatı təqdim edildi. Bildirildi ki, cəmi 28 kiloqram çəkisi olan bu aparatla 5500 metr maksimal hündürlükdə canlı yayımda gecə və gündüz şəraitində düşmən ərazisində havadan kəşfiyyat aparmaq, aşkar edilmiş hədəflərin koordinatlarını təyin etmək mümkündür. Sürəti saatda 93 kilometr olan aparatın maksimal uçuş məsafəsi 120 kilometr, uçuş müddəti isə 7 saatdır.

**(Ardı 2-ci səhifədə)**

# Əlahiddə Ümumqoşun Ordunun “N” hərbi hissəsində yaradılan şəraitlə tanışlıq

## Prezident, Ali Baş Komandan İlham Əliyev yeni hərbi xəstəxananın açılışını edib

(Əvvəli 1-ci səhifədə)



Qarnizonun arsenalına yeni qəbul olunmuş 60, 82 və 120 millimetrlik minaatanlar üçün simulyator dəsti döyüş mərmilərini sərf etmədən, komplektində olan pnevmatik mərmilərlə praktiki atəş tapşırıqlarının yerinə yetirilməsi üçün təyin olunub. Komplektə 20 pnevmatik mərmi və 100 partlayıcı maddə daxildir.

Ali Baş Komandana təqdim olunan 82 millimetrlik minaatan batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti 5 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün hesabatların aparılması, 120 millimetrlik minaatan və 122 millimetrlik "D-30" haubitsalı artilleriya batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti isə 15-20 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün qurğuların hesablanmasına təyin olunub.

"Su-25" hücum təyyarəsi gündüz və gecə, adi və mürəkkəb hava şəraitlərində yerüstü və hava hədəflərini məhv etmək və bilavasitə döyüş meydanında quru qoşunlarına dəstək vermək üçün yaradılıb. Saatda 1000 kilometrədək sürət yığan bu döyüş təyyarəsi 7 kilometrə qədər yüksəklikdə uça bilir.

Dövlətimizin başçısı "S-125-2 TM" zenit-raket kompleksinin nəqliyyat doldurucu maşınının da taktiki-texniki göstəriciləri ilə tanış oldu. Üzərində kran quraşdırılmış nəqliyyat doldurucu maşın idarəolunan zenit raketlərin konteynerdə və açıq vəziyyətdə daşınması, buraxıcı qurğuya doldurulub-boşaldılması üçün nəzərdə tutulub. Bu texnika ilə 4 ədəd raket daşımaq mümkündür.



Prezident İlham Əliyevə "SAND CAT" zirehli avtomobilinin taktiki-texniki göstəriciləri barədə də məlumat verildi. Bildirildi ki, bu zirehli yüngül avtomobil komanda heyətinin, silahlı bölmələrin, onlara aid avadanlığın və silah sistemlərinin daşınması, düşmənin canlı qüvvəsinin, zirehli texnikalarının və möhkəmləndirilmiş atəş mövqelərinin məhv edilməsi üçün təyin olunub. Avtomobil 12,7 millimetrlik pulemyot, 2 raketdən ibarət "Spiker-LR" tank əleyhinə idarə olunan kompleks və 120 millimetrlik minaatanla təchiz edilib.

152 millimetrlik "QİASİNT-B" topu düşmənin canlı qüvvəsini, atəş vasitələrini və marş zamanı döyüş texnikalarını, cəmləşmə rayonlarını, dayaq məntəqələrini məhv etmək və susdurmaq imkanlarına malikdir. Bu qurğunun maksimal atış məsafəsi aktiv-reaktiv mərmi ilə 35,5, adi mərmi ilə 28,6 kilometrdir.

Müasir döyüş maşınlarından sayılan "BTR-82A" zirehli transportyor döyüş meydanında fəaliyyət göstərən piyadanın mobilliyini, silahlanmasını və müdafiəsini yüksəltmək, düşmənin canlı qüvvəsini, tank əleyhinə vasitələrini və yüngül zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulur. Döyüş maşınında 30 millimetrlik top və 7,62 millimetrlik pulemyot quraşdırılıb.

Burada nümayiş olunan "TOS-1A" ağır odatan yaylım atəş sistemi düşmənin taqım dayaq məntəqələrini, həmlə edən bölükləri, artilleriya və minaatan batareyalarının atəş mövqelərini və marşda olan avtomobil kolonlarını məhv etmək iqtidarına malikdir. 220 millimetrlik sistemin 24 istiqamətləndiricisi var və maksimal atəş məsafəsi 6 min metrdir.

"XRİZANTEMA-S" özüyeriyən tank əleyhinə raket kompleksi dinamik örtüklə təchiz edilmiş tankları, piyadaların döyüş maşınlarını və digər yüngül zirehli hədəfləri, fortifikasiya qurğularını və uzunmüddətli atəş nöqtələrini, alçaqdan uçan təyyarə və vertolyotları məhv etmək imkanlarına malikdir. Batareya komandirinin idarəetmə maşını düşmənin güc və vasitələrinin aşkar edilməsi, taqım və heyətlər arasında hədəflərin bölüşdürülməsi üçün təyin olunub.

Bütün bunlar göstərir ki, 100 illiyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan Silahlı Qüvvələrinin bu gün dünyanın ən güclü 50 ordusu sırasında olması heç də təsadüfi deyil. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində ordumuzun arsenalı dünyanın aparıcı ölkələrinin istehsalı olan silah-sursatla genişlənir və bu işdə Azərbaycanın milli müdafiə sənayesi kompleksinin imkanları mühüm rol oynayır.

Sonra Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışında iştirak etdi.

Dövlətimizin başçısı xəstəxana binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, ən müasir tibbi avadanlıqla təchiz edilən üçmərtəbəli yeni xəstəxana binasında poliklinika-qəbul, terapiya, cərrahiyyə, anesteziologiya və reanimotologiya, təminat bölmələri və inzibati bölmə mövcuddur. Xəstəxananın poliklinika-qəbul bölməsində oftalmologiya, ginekologiya, lor, ultrasəs və elektroqrafiya kabinələri və laboratoriya fəaliyyət göstərəcək. Altmış çarpayılıq xəstəxana binasında şəxsi heyətə ilkin tibbi yardım göstərmək üçün sarğı, prosedur və təxirəsalınmaz yardım otaqları da yaradılıb. Burada şəxsi heyətin tibbi biliklərinin daha da artırılması məqsədilə hərbi tibbi hazırlıq üzrə məşğələlər keçmək üçün müasir tədris vəsaitləri ilə təmin edilən sinif və mühazirə zalı mövcuddur. Buradakı laboratoriya müasir avadanlıqla təchiz olunub. Bu isə laborator müayinələri operativ və yüksək dəqiqliklə yerinə yetirməyə imkan verir. Bir sözlə, xəstəxanada əsgər və zabitlərə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hərtərəfli şərait yaradılıb. Bu tibb müəssisəsinin müasir avadanlıqla təchiz olunması Azərbaycanda ordu quruculuğu sahəsinin inkişafına göstərilən dövlət qayğısının əyani təzahürüdür. Bütün bunlar bir daha sübut edir ki, dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əsgər və zabitlərin sağlamlığının qorunmasına, həmçinin sosial məsələlərinin həllinə xüsusi həssaslıqla yanaşır və bu istiqamətdə mühüm işlər görür.



Yeni yaradılan hərbi hissədə əsgər yataqxanaları, əsgəri-məişət kompleksi, təlim-tədris mərkəzi, qərargah binası, xəstəxana inşa olunub, sıra meydanı, idman şəhərciyi salınıb.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində taktiki simulyasiya, trenajor, mədəni-kütləvi işin təşkili bölmələri, sənədli və tədris filmləri kinostudiyası, hərbi mətbəə yerləşir. Ümumi sahəsi 7500 kvadratmetr olan üçmərtəbəli binada, həmçinin zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı vardır. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub. Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə 18 trenajor quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş zamanı onlardan atəş açılması öyrədilir. Keçirilən təlimlərin sonunda qiymətləndirmənin aparılması isə şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verir. Simulyasiya mərkəzində artilleriya qurğularının taktiki-texniki xüsusiyyətləri, həmçinin atışın idarə olunması üzrə məşğələlərin praktik mənimsənilməsi üçün hər cür şərait yaradılıb, otaqlarda mərkəzdən idarə olunan və xüsusi proqram təminatına malik 100 kompüter və proyektor quraşdırılıb. Atəş hazırlığı otağında yaradılan virtual təlim meydançası döyüş sursatı sərf etmədən müxtəlif şəraitdə atəşin idarəolunmasını həyata keçirməyə imkan verir. Həmçinin burada atəş tapşırıqlarını təhlil etmək və qiymətləndirmək, atəş göstəricilərinin dəqiqliyini müqayisə etmək mümkündür. Mərkəzin kitabxanasında Azərbaycan və dünya ədəbiyyatı nümunələri, eləcə də ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən 16 mindən artıq kitab, qəzet və jurnal materialları toplanıb. Burada şəxsi heyətin gündəlik dövri mətbuatla tanış olmaq, hərbi və bədii ədəbiyyatları mütaliə etmək imkanı var. Hərbi sahəyə dövlətimizin göstərdiyi diqqətin nəticəsidir ki, bu gün Əlahiddə Ümumqoşun Orduda, gənc əsgərlərin peşəkar döyüşçü kimi hazırlığı da daxil olmaqla, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, gizir və zabit hazırlığı kursları da təşkil edilir, zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur.

# Müdafiə naziri: Azərbaycan Respublikası Prezidentinin daxili və xarici siyasəti nəticəsində ölkəmizin iqtisadi yüksəlişi və hərbi potensialının artması Ermənistanı iflasa uğradıb

*Mayın 18-də birlik, birləşmə, hərbi hissə komandirləri və xüsusi təyinatlı hərbi təhsil müəssisələri rəislərinin şəxsi heyətlə iş üzrə müavinlərinin iştirakı ilə "Müasir döyüşün mənəvi-psixoloji təminatının aktual problemləri" mövzusunda seminar keçirilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənov seminarda iştirak edən şəxsi heyətlə görüşüb.*





Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Döyüş və mənəvi-psixoloji hazırlıq işinin cari vəziyyəti ilə bağlı geniş təhlil aparan general-polkovnik Zakir Həsənov bu istiqamətdə fəaliyyətin yüksək səviyyədə təşkili, hərbi qulluqçuların milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi, müasir silah və texnikanı dərindən bilmələri və bir sıra digər məsələlərlə bağlı fikirlərini bölüşüb.

Ordumuzun qazandığı nailiyyətləri xüsusi qeyd edən Müdafiə naziri bu uğurların Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu prosesinə göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu vurğulayıb.

Müdafiə naziri bildirib ki, Azərbaycan Respublikası Prezidentinin məqsədyönlü daxili və xarici siyasəti Ermənistanı bütün regional və beynəlxalq iqtisadi layihələrdən təcrid edərək xarici yardımlardan asılı vəziyyətə salıb. Nazir xüsusilə qeyd edib ki, Azərbaycanın iqtisadi yüksəlişi və hərbi potensialının artması Ermənistanı iflasa uğradıb.

Müdafiə naziri döyüş və mənəvi-psixoloji hazırlıq işinin daim gücləndirilməsi, təhlükəsizlik qaydalarına əməl olunması və sayıqlığın artırılması, hərbi qulluqçular arasında fərdi tərbiyə işinin düzgün aparılması, qarşılıqlı münasibətlərin nizamnamələrin tələblərinə uyğun təşkil edilməsi və digər sahələrlə bağlı səylərin artırılması istiqamətində konkret tapşırıqlarını verib.

Sonra seminarın mövzusu ilə əlaqədar məruzələr dinlənilib, iştirakçılar fikir mübadiləsi aparıb və mənəvi-psixoloji təminatın təkmilləşdirilməsi ilə bağlı təkliflər irəli sürülüb.

**"Azərbaycan Ordusu",**
**fotolar**
**Natiq İSAYEVİNDİR**

# Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

Mayın 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Belarus Respublikası Dövlət Hərbi-Sənaye Komitəsinin sədri general-mayor Oleq Dviqalyovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə iki ölkə arasında hərbi və hərbi-texniki sahədə birgə fəaliyyətin nəticələrindən məmnunluq ifadə edilərək bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Nümayəndə heyətləri Belarus hərbi-sənaye kompleksi müəssisələrinin istehsal etdiyi bütün qoşun növləri üçün nəzərdə tutulmuş müxtəlif təyinatlı hərbi məhsulların Azərbaycan Ordusunun silahlanmasına qəbul edilməsini müsbət qiymətləndiriblər.

Tərəflər hərbi-texniki əməkdaşlıq məsələlərinin geniş spektrini müzakirə edərək Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəlmiş yeni böyük layihələrin həyata keçirilməsi istiqamətlərini müəyyənləşdiriblər.

# Bakıda NATO tərəfdaşların arxa cəbhə ekspertlərinin daimi qrupu ilə görüş keçirilir

NATO ilə əməkdaşlıq çərçivəsində Bakıda ilk dəfə tərəfdaşların arxa cəbhə ekspertlərinin daimi qrupu ilə hərəkət və nəqliyyat, dayanıqlı planlaşdırılma və hərəkət sərbəstliyi mövzularında görüşü keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə 13 ölkədən 24 nümayəndə iştirak edir.

Ekspert qrupunun əsas məqsədi NATO əməliyyatlarına töhfə verən tərəfdaş ölkələrin maddi-texniki təminat bölmələrinin imkanlarını müəyyənləşdirərək səmərəli istifadəsi üçün inkişaf etdirmə yollarını tapmaqdır.

# Müdafiə naziri Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb

*Mayın 17-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Fizuli Salahov, Türkiyə Respublikası Quru Qoşunları Məktəbinin rəisi briqada generalı İsmayıl Güzeller və Gürcüstan Milli Müdafiə Akademiyasının rektoru polkovnik Zaza Caparidze ilə görüşüb.*

Cari il martın 31-də Giresun şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan arasında imzalan müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna əsasən hər üç ölkənin hərbi təhsil müəssisələri rəhbərlərinin Bakıda keçirilən görüşü çərçivəsində aparılan müzakirələrin, təcrübə mübadiləsinin mühüm əhəmiyyət kəsb etdiyini deyən Müdafiə naziri bu cür tədbirlərin mütəmadi olaraq keçirilməsinin vacibliyini vurğulayıb.

General-polkovnik Zakir Həsənov Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələri rəhbərlərinin Bakıdakı tədbirinin hər üç ölkənin Müdafiə nazirləri və Silahlı Qüvvələri Baş Qərargah rəislərinin bu günədək keçirdikləri görüşlərin davamı kimi qiymətləndirib, bu əməkdaşlığın regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Tərəflər, həmçinin hər üç ölkənin hərbi təhsil müəssisələri arasında kursantların qarşılıqlı təhsil almaları, birgə təlimlərin, idman, bilik yarışlarının keçirilməsi və bir sıra digər məsələləri müzakirə ediblər.

Görüşün təşkilinə və qonaqpərvərliyə görə general-polkovnik Zakir Həsənova minnətdarlıqlarını ifadə edən məktəb rəhbərləri də öz növbəsində Bakıda aparılan üçtərəfli səmərəli müzakirələrin təmsil etdikləri ali hərbi təhsil müəssisələri arasında əlaqələrin daha da inkişafına, birgə fəaliyyətlərin həyata keçirilməsi işinə mühüm töhfələr verəcəyinə əminliklərini bildiriblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Azərbaycan-Türkiyə bir qürurun, bir sevginin qoşa qanadı deməkdi, zamanında dünyanı heyrətləndirən bir qüdrətin qoşa ünvanı deməkdi, bəşəri sivilizasiyanın ilkinlərindən olan iki dövlət deməkdi, gündüzlər Günəşin, gecələr Ayın şöləsiylə süslənən bəşərilik deməkdi. Və bəşəriliyin söykənməli olduğu birlik, bu birliyin cazibə qanununu şərtləndirən, bir-birini tamamlayan iki toplum deməkdi. Ulu Öndərin dediyi kimi, "Bir millət, iki dövlət"deməkdi. Milli-xəlqi ruhun yaşarlığını yaşadan qarşılıqlı ehtiram deməkdi...*

# Yeni məkanınız mübarək, qoşa bayraqlarımız!

1993-cü ildə Azərbaycanda ictimai-siyasi vəziyyət iqtisadi vəziyyəti də son dərəcə gərginləşdirmişdi. Müharibənin, siyasi qarşıdurmaların nəticəsi kimi Böyük torpaqdan aralı düşən Naxçıvanda əhalinin güzəranı ağırlaşmışdı - şərait Naxçıvanda yaşayanlara sıxılcımlar yaşadırdı. Onda çıxılmazlıqları aradan qaldırmağa qadir olan böyük azərbaycanlı, ömrünü Azərbaycan üçün, Azərbaycan dövlətçiliyi üçün yaşayan dahi tarixi şəxsiyyət Heydər Əliyev Naxçıvan Muxtar Vilayəti Ali Sovetinin sədri - əhalinin ümid yeri idi...

Ulu Öndərin təşəbbüsü ilə Türkiyəni Naxçıvanla birləşdirən bu əlaqə vasitəsi "Ümid körpüsü" adlandırıldı. Açılışında Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl də iştirak edən "Ümid Körpüsü" ümidlərin körpüsü oldu, milli-xəlqi ruhun dönməzlik körpüsü oldu; "Ümid körpüsü"nün o tərəfinə də, bu tərəfinə də hər dan üzü əsən meh sığal çəkməkdədi, Orxun-Yenisey abidələrinin, Bilgə xaqanın bəngüdaşında yazılanların işığı nurlandırmaqdadı...

Əski uyğur mənbələrində "türk" kəlməsinin bir yozumu da güclü, qüdrətli deməkdi; türklüyün yeni bir ifadəsi olan "Ümid körpüsü" həm də böyük tarixi şəxsiyyət Heydər Əliyevin azərbaycançılığının təsdiqiydi...

Eyni dilin, eyni düşüncənin, eyni vətənsevərliyin sərhədi olmur; "Ümid körpüsü" sərhədsizliyin körpüsüdü...

Xalqın təkidli tələbiylə hakimiyyətə qayıdan Ulu Öndərin "Bir millət, iki dövlət" kəlamı ictimai həyatın bütün sahələrini əhatələdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu kəlamı ruhun sərhədsizliyi bildi, yaşatdı, yaşadır, yaşadacaq da; Azərbaycanda ordu quruculuğu həm də bu kəlamın ilahiliyindən rişələnir. Bakıda keçirilən "TurAZ Qartalı-2016", "TurAZ Qartalı-2017 ikitərəfli hərbi yönümlü tədbirlər göyün yerə, yerin göyə sədaqəti kimi izlənildi. Bu uçuşlar gücün,



qüdrətin uçuşlarıydı. Bu uçuşlar türklüyün uçuşlarıydı. Bu uçuşlar Qafqaz İslam Ordusunun mahiyyətinin uçuşlarıydı. Bu uçuşlar şəhidlərin ruhunun uçuşlarıydı. Bu uçuşlar əsrin kəlamı kimi əbədiyyən yaşadılacaq bir kəlamın - "Bir millət, iki dövlət" uçuşlarıydı. İzlədiyim bu uçuşlar dünyanın gözlərinin heyrətinə dönmüşdü, türklüyə biət gətirənlərin könül xoşluğuna. Ruhumdan misralar süzülmüşdü:

*Ey mavi göylərin bəyaz qartalı,*
*Könlüm sarılmışdı qanadlarına,*
*Göyün göylüyündə "TurAZ Qartalı!"*

"TurAZ Qartal"larının milyonlarla ruhun sarıldığı qanadları göy üzünü gözəlləşdirdi, tarixə bir qətiyyət, bir dönməzlik həkk etdirdi: "Varıq, var olacağıq!". Onda tanımadığım bir türk məni bağrına basmışdı, qoşa qollarım tanımadığım o türkün kürəyində çarpazlaşmışdı. İkimiz də Əhməd Cavadın "Yol ver türkün bayrağına" şeirinin misralarını pıçıldamışdıq. Bu pıçıltı ürəkürək gəzişmişdi; türkün bayraqlarını görüncə coşan Xəzər, gərili dalğaları sahili döyəcləmişdi, "Qoşa bayraqların qoşalığı, qoşalığın ayrılmazlığı türkə xor baxanların niyyətini də belə döyəcləyəcək", - demişdim. Tanımadığım, tanımağa macal tapmadığım arkadaşım qədərsiz istəklərlə "elədi..." - demişdi...

"Ümid körpüsü" bir qanadı Türkiyə, bir qanadı Azərbaycan olan ayrılmazlıq körpüsüdü, vəhdət körpüsüdü.

Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq məzmun etibarilə də genişlənməkdədir; mayın 29-dan 31-nə kimi Türkiyənin Qars şəhərində Türkiyə-Azərbaycan döyüş atışlı birgə tabor tapşırıq qüvvəsi təlimi keçiriləcək. Bu, Türkiyənin Azərbaycan, Azərbaycanın Türkiyə ordusunun gücünə, qüdrətinə etibarının, ehtiramının təzahürüdü. Birgə təlim mahiyyəti etibarilə döyüş hazırlığının yüksəldilməsinə yönəldilir.

"Ümid körpüsü"ndə olduqca duyğusal, olduqca gərəkli, qürurverici bir tədbir keçirildi: bayraq dəyişmə mərasimi. Bu mərasimin mənəvi dəyərini istər Türkiyədə, istərsə də Azərbaycanda olduqca həssaslıqla, olduqca duyğusallıqla, olduqca qürurla qarşılandığına kimsə şübhə edə bilməz. Bayraq dəyişdirildi. Bu dəyişdirilmə "Türkiyədə Azərbaycanın, Azərbaycanda Türkiyənin dövlət bayrağı dövlətin öz bayrağı kimi qorunacaq" - kimi anlaşılır. Bu biçim etimad, bu biçim etibar, bu biçim ehtiram yerə-göyə sığan deyil...

Bayraqlar dəyişdirildi. Azərbaycanın dövlət bayrağı Türkiyəyə, Türkiyənin dövlət bayrağı Azərbaycana etibar edildi. Dəyişdirilmə prosesinin mahiyyətini hərbi andiçmə bilirəm: harada Türkiyə bayrağı varsa, orada Azərbaycan bayrağı da olacaq, harada Azərbaycan bayrağı varsa, orada Türkiyə bayrağı olacaq!..

Bu tədbirin məhz "Ümid körpüsü"ndə keçirilməsi də ürəyimizi telləndirir - "Ümid körpüsü" həm də dövlətə, dövlətçiliyə qarşılıqlı sədaqət körpüsüdü...

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan deyir ki, Azərbaycanın problemləri Türkiyənin problemləridi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyir ki, Türkiyənin problemləri Azərbaycanın problemləridi. Bu təlim, bu təlimin başlanğıcı olan bayraqdəyişmə Prezidentlərin kəlamlarının davamıdı, şübhəsiz...

Yeni məkanlarınız mübarək, Türkiyə bayrağı!

Yeni məkanlarınız mübarək, Azərbaycan bayrağı!

Yeni məkanınız mübarək, qoşa bayraqlarımız!..

Uğurunun işığını tarixə üzərlik bilirik, döyüş atışlı birgə tabor tapşırıq qüvvəsi təlimi!..

Bu təlim iki böyük tarixi şəxsiyyətin - Mustafa Kamal Atatürkün, Heydər Əliyevin ideyalarının, istəklərinin birgəlik təlimi kimi izləniləcək!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 16-da Xocavənd rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*18 may 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 85 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Abdinli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələri rəhbərlərinin üçtərəfli görüşü keçirilib



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələri rəhbərlərinin görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə nümayəndə heyətləri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin ərazisində Ulu Öndərin şərəfinə ucaldılan abidənin önünə gül dəstələri qoyub, ehtiramlarını bildiriblər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Fizuli Salahov qonaqları salamlayaraq bu görüşün əhəmiyyətindən danışıb. O, bu cür görüşlərin hərbi təhsil müəssisələrinin zabit-müəllim heyətləri arasında dostluğun daha da möhkəmləndirilməsinə, eləcə də hərbi təhsil və qarşılıqlı maraq doğuran digər sahələr üzrə əlaqələrin genişləndirilməsinə mühüm təkan verəcəyinə əminliyini bildirib.

Bu görüşün Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildirən Türkiyə Respublikası Quru Qoşunları Məktəbinin rəisi briqada generalı İsmayıl Güzeller və Gürcüstan Milli Müdafiə Akademiyasının rektoru polkovnik Zaza Caparid-



ze vurğulayıblar ki, bu cür tədbirlərin keçirilməsi hərbi təhsil müəssisələri arasında təcrübə mübadiləsinin, birgə proqramların, layihələrin reallaşdırılmasına layiqli töhfələr verəcəkdir.

Tərəflər gələcəkdə də bu cür görüşlərin davamlı olmasını, daha geniş formatda keçirilməsini arzulayıb, hər zaman qardaş dövlətlərin müsbət təcrübələrindən öyrənməyə, onlarla birgə işləməyə hazır olduqlarını və bundan böyük qürur hissi keçirdiklərini ifadə ediblər.

Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Türkiyə Respublikası Quru Qoşunları Məktəbinin və Gürcüstan Milli Müdafiə Akademiyasının yaranma tarixi, onların keçdikləri inkişaf mərhələləri, təlim-tədris prosesləri barədə brifinqlər təqdim olunub.

Qonaqlar Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin trenajor zalında, siniflərdə və zirehli texnika anbarında olub, təhsil ocağındakı tədris prosesi ilə yaxından maraqlanıblar.

Sonda görüşün yekunlarına dair birgə protokol imzalanıb.

# Qazaxda Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı Nəbi Nəbiyevin 100 yaşı qeyd olunub

*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Qazax rayonunun ucqar sərhəd kəndi olan Kəmərlidə Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı, İkinci Dünya müharibəsi veteranı Nəbi Daşdəmir oğlu Nəbiyevin 100 illik yubileyi təntənə ilə qeyd olunub.*





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, yubiley mərasimində Müdafiə Nazirliyinin rəsmiləri, Qazax rayon İcra Hakimiyyətinin rəhbərliyi, sərhədboyu bölgənin keşiyində mərdliklə duran Vətən əsgərləri, Kəmərli və qonşu kəndlərin ağsaqqalları, ziyalılar, ictimaiyyət nümayəndələri və məktəblilər iştirak ediblər.

Hərbi orkestrin müşayiəti ilə 100 yaşlı müharibə veteranı müasir Azərbaycan Ordusunun hərbi səhra geyimində at belində meydana gətirilib, sərrast addımlarla tədbir iştirakçılarının qarşısından keçib. Dövlət bayraqları və Azərbaycan milli atıcı diviziyalarının döyüş bayraqları dalğalanan yaşıl yamacda Qazaxın ən uzunömürlü sakini 112 yaşlı Sayalı nənə öz həyətində becərdiyi qızıl güllərlə Nəbi babanı qarşılayıb.

Layihənin müəllifi, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından yubilyarı və tədbir iştirakçılarını salamlayıb.

Qeyd edilib ki, uzunömürlülər diyarı doğma Azərbaycanımızda hər bir əmək və müharibə veteranı dövlət səviyyəsində xüsusi diqqət və qayğı ilə əhatə olunub. Belə insanlardan biri də Nəbi babadır. Qazax elində hamı Nəbi babanı xeyirxah, səmimi, vətənpərvər, Heydər Əliyev ideyalarına sədaqətli bir kişi kimi tanıyır, ona böyük məhəbbət bəsləyir. Nəbi baba bu dağlarda döyüş növbəsində ayıq-sayıq dayanan Vətən əsgərlərinin də sevimlisidir.

Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini və xüsusi hədiyyələrini bir əsr şərəfli ömür yaşamış el ağsaqqalına, müharibə veteranına təqdim edib.

Müdafiə nazirinin təbrikində 100 yaşlı Nəbi babanın Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etdiyi, onun mənalı həyat və döyüş yolunun hər bir gənc üçün örnək olduğu vurğulanır. Bildirilir ki, Nəbi Nəbiyev ömrünün ixtiyar çağında da gənc nəslin vətənpərvərlik tərbiyəsində, Azərbaycan Ordusunun əsgər və zabitlərinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının yüksəldilməsində səylərini əsirgəmir.

"100 illik ömrümdə boyu belə yubiley görməmişəm", - deyə kövrələn Nəbi baba tədbir iştirakçılarına da duyğulu anlar yaşadıb.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı Nəbi babaya göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə bütün qazaxlılar adından minnətdarlıq edib. "Vaxt var idi ki, bu yerlər təhlükəli, qanlı-qadalı idi. İndi isə Ali Baş Komandanımızın rəhbərliyi altında, milli ordumuzun sayəsində bu yerlər rayon sakinlərinin yaylaq yerlərinə, otlaq yerlərinə, əkin-biçin yerlərinə çevrilib. Bu gün isə burada əsl bayram, qələbəlikdir. Bütün bunlara görə bir daha ölkə rəhbərliyinə borcluyuq", - deyə icra hakimiyyətinin başçısı qeyd edib.

Gəncə şəhər müharibə veteranları adından Nəbi babanı təbrikə gələn 98 yaşlı Tofiq Hüseynov, Müdafiə Nazirliyinin zabiti Emin Səfərov, Azərbaycan Yazıçılar Birliyi Qazax rayon zona filialının sədri, Əməkdar İncəsənət Xadimi, şair-publisist Barat Vüsal, respublikanın Xalq artisti Tariyel Qasımov və başqaları çıxış edərək yubilyara səmimi arzularını, tədbirin təşkilatçılarına isə minnətdarlıqlarını bildiriblər.



Nəbi Daşdəmir oğluna respublika veteranlar təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynovun adından "General Əlaga Şıxlinski" yubiley medalı təqdim olunub.

Aşıq Hüseynlə aşıq Kifayət ifaları ilə məclisə xoş ovqat bəxş ediblər. "Yanıq Kərəmi", "Ruhani", "Misri" havaları dağlarda əks-səda verib.

Nəbi baba "Azərbaycan Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə göstərdikləri diqqət və qayğıya görə minnətdaram. Ali Baş Komandan Qarabağa hücum əmri verərsə, mən də ön sıralarda olacağam!"- deyib.

Qara zurnanın sədaları altında veteranlar, hərbçilər rəqs ediblər.

Sonda tədbir iştirakçıları xatirə şəkilləri çəkdiriblər.

# Azərbaycanın BMT-dəki daimi nümayəndəliyinin başçısı Təhlükəsizlik Şurasının iclasında çıxış edib

Mayın 17-də BMT Təhlükəsizlik Şurasının "Beynəlxalq sülhün və təhlükəsizliyin dəstəklənməsi kontekstində beynəlxalq hüquqa riayət edilməsi" mövzusunda açıq iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı (BMT) yanında daimi nümayəndəsi Yaşar Əliyev bəyanatla çıxış edib.

Y.Əliyev çıxışında bildirib ki, hazırda sülh və təhlükəsizlik çağırışları beynəlxalq hüquq qaydalarının möhkəmlənməsini, habelə münaqişələrin aradan qaldırılması və nizamlanması üçün bütün səviyyələrdə səylərin fəallaşdırılmasını tələb edir, bunun üçün beynəlxalq hüququn hamılıqla qəbul edilmiş, dövlətlərarası münasibətləri tənzimləyən norma və prinsiplərinə ciddi riayət olunmalıdır. "Beynəlxalq hüquq münaqişələrin aradan qaldırılmasında və ya həllində təkcə nəticələr əldə edilməsi deyil, həm də bu nəticələrin müəyyən normalara müvafiq proseslərlə müşayiət olunmasını tələb edir. Bu kontekstdə elə etmək lazımdır ki, münaqişələrin qarşısının alınması və nizamlanması üzrə çərçivə və mexanizmlər vasitə kimi qanunsuz güc tətbiqi, hərbi cinayətlər, bəşəriyyət əleyhinə cinayətlər, soyqırımı aktları və etnik təmizləmələrlə bağlı şərtlərin möhkəmləndirilməsində istifadə olunmasın".

Səfir bildirib ki, beynəlxalq birliyin böyük əksəriyyətinin tərəflərin hər hansı təcavüzü gizli saxlamaq və möhkəmləndirmək cəhdlərinə və beynəlxalq hüququn norma və prinsiplərinin yanlış şərh edilməsi vasitəsilə başqa qanunsuz hərəkətlərinə qarşı ardıcıl çıxış etməsi son dərəcə əhəmiyyətlidir. "Qabaqlayıcı səylərdən, habelə mübahisə və münaqişələrin yerindəcə sülh yolu ilə nizamlanmasından başqa, beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüququn və insan hüquqları sahəsində beynəlxalq normaların pozulmasına görə cəzasızlığın aradan qaldırılması üzrə tədbirlərin təmin edilməsi, heç şübhəsiz, səmərəli çəkindirici amildir".

Diplomat bildirib ki, Birləşmiş Millətlər Təşkilatının əsas orqanları tərəfindən qəbul edilmiş qətnamələrin, o cümlədən mübahisələrin sülh yolu ilə həllinə, onların qarşısının alınmasına və nizamlanmasına dair qətnamələrin həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir. "Üzv ölkələrin ərazilərinin hərbi işğal altında qalması və onların demoqrafik tərkibinin və milli xarakterinin irqi, etnik və dini xətlər üzrə dəyişdirilməsinə yönəldilən qabaqcadan düşünülmüş əməllərin Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq davam etməsi yolverilməzdir və dözülməzdir".

Y.Əliyev bəyan edib ki, nəzərdən keçirilən məsələ barədə Azərbaycanın ardıcıl mövqeyi yaxşı məlumdur və bu mövqe hər şeydən əvvəl onun təcrübəsi, o cümlədən başqa dövlət tərəfindən silahlı təcavüzə, etnik təmizləməyə və hərbi işğala məruz qalması ilə bağlıdır. Azərbaycanın BMT-dəki diplomatik missiyasının başçısı deyib ki, Təhlükəsizlik Şurası özünün 822, 853, 874 və 884 nömrəli qətnamələri ilə Azərbaycana qarşı hərbi gücün tətbiqi faktını, bu əməllərin BMT Nizamnaməsi ilə bir araya sığmadığını və Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün pozulduğunu etiraf edib.

Beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının yuxarıda göstərilən qətnamələrinə müvafiq olaraq, münaqişənin siyasi yolla həlli, möhkəm sülhə, təhlükəsizliyə və sabitliyə nail olunması işğalçı qüvvələrin Dağlıq Qarabağ regionundan və Azərbaycanın işğal edilmiş digər ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasına, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpasına, məcburi köçkün azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıtması hüququnun həyata keçirilməsinə, onların əmlak hüququnun təhlükəsizlik şəraitində və layiqli şəkildə bərpasına əsaslanmalıdır. Konkret siyasətə və bununla bağlı addımlara dair öhdəliklər kompromis kimi tətbiq edilən və ya münaqişənin nizamlanması prosesində təsir vasitəsi kimi istifadə olunan yarımçıq tədbirlərlə əsla əvəzlənə bilməz.

AZƏRBAYCAN ORDUSU

# "Ən yaxşı topoqraf" adı uğrunda yarış keçirildi



2018-ci tədris ilinin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun topogeodeziya ixtisaslı zabitləri ilə "Ən yaxşı topoqraf" adı uğrunda yarış keçirildi.

Yarışı giriş sözü ilə açan 2-ci dərəcəli kapitan Dmitriy Nazarov tədbirin əhəmiyyətini qeyd etdi və iştirakçılara müvəffəqiyyətlər arzuladı. Bildirdi ki, iştirakçılar ərazidə səmtləşmə, GPS vasitəsilə dayanma nöqtəsinin koordinatlarının təyini, müasir proqram təminatından istifadə edilməsi və fiziki hazırlıq üzrə güclərini sınayacaqlar.

"Ən yaxşı topoqraf" adı uğrunda keçirilən yarışlara start verildikdən sonra iştirakçılar ilk olaraq üfüqün cəhətlərini günəşə və saata görə təyin etdilər. Mövqe təyinedən cihaz (GPS) vasitəsilə dayanma nöqtəsinin koordinatlarını müəyyən edib, xəritəyə köçürdülər və nəticədə hündürlüyü müəyyənləşdirdilər. "Başla" komandasını aldıqdan sonra M-3 taxometr cihazını taraz vəziyyətinə gətirdilər. Bunun ardınca yarış iştirakçıları təyin olunmuş coğrafi koordinatları "Global Mapper" proqramında düzbucaqlı koordinata çevirərək rəqəmsal raster xəritədə hədəfi tapdılar. Günün sonunda iştirakçılar hissələrə ayrılmış 1:50000 miqyaslı kağız xəritə parçalarını birləşdirərək hazır vəziyyətə gətirdilər.



Növbəti yarış günündə iştirakçılar "Azimutla hərəkət" topogeodezik çalışma növündə və fiziki hazırlıq üzrə güclərini sınadılar.

Yarışda ümumi xal hesabına görə birinci yeri baş leytenant Rafiq Ramazanov, ikinci yeri mayor Tengiz Məmmədov, üçüncü yeri kapitan Ramal İsayev tutdular.

I dərəcəli kapitan Davud Bağırlı yarışda fərqlənən hərbçiləri mükafatlarla təltif etdi və onlara gələcək xidmətlərində uğurlar arzuladı.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusu beynəlxalq hərbi əməkdaşlıq müstəvisində

Dünyada geosiyasi oyunların çox sürətlə cərəyan etdiyi müasir dövrdə beynəlxalq müstəvidə yeni güc mərkəzlərinin yaranması dövlətlərarası əlaqələrin, xüsusilə hərbi əlaqələrin inkişafını labüd edir. Bu gün qloballaşan dünyanın ən həssas nöqtələrindən birində yerləşən Azərbaycan üçün ölkənin ərazi bütövlüyünü qoruyan ordunun formalaşdırılması, daim yüksək səviyyədə saxlanılması, torpaqların işğaldan azad edilməsi üçün hərbi əməliyyatlara hazır olması, yüksək hərbi texnika ilə təchiz edilməsi və ən əsası hərbi əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi günün tələbi kimi ortaya çıxır. Hazırda Azərbaycan dövləti yerləşdiyi regionun geostrateji və geosiyasi üstünlüklərindən faydalı şəkildə bəhrələnmək, milli maraqlarını maksimum səmərəli realizə etmək üçün beynəlxalq hərbi əməkdaşlığı uğurla davam etdirir. Bu əməkdaşlıq ordumuzun müasir hərbi standartları mənimsəməsinə, modern yenilikləri tətbiq etməsinə şərait yaradır.

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə Dağlıq Qarabağda başlayan erməni separatizmi, eləcə də hərbi təcavüzün genişlənməsi dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkir.

Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və fəal xarici siyasəti, o cümlədən beynəlxalq hərbi əməkdaşlığı tələb edir. Beynəlxalq hərbi əməkdaşlıq fəaliyyəti Xarici İşlər Nazirliyi və digər aidiyyəti dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələr ilə əlaqəli şəkildə, Azərbaycan Respublikasının müdafiə və xarici siyasət kursuna müvafiq olaraq Müdafiə Nazirliyi tərəfindən həyata keçirilir. Müdafiə Nazirliyi hərbi, hərbi-siyasi, hərbi-texniki sahələrdə xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla ikitərəfli, üçtərəfli və çoxtərəfli formatda beynəlxalq hərbi əməkdaşlığı həyata keçirərkən Hərbi Doktrinanı və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq konsepsiyası"nı əsas götürür, əməkdaşlığın əsas prinsiplərini, istiqamətlərini, həyata keçirilmə formalarını və hərbi əməkdaşlığın inkişafının perspektiv yollarını müəyyənləşdirir.

Ötən illərdə olduğu kimi, bu il də Azərbaycan dövlətinin beynəlxalq arenada mövqeləri daha da möhkəmlənib, xarici əlaqələri çoxşaxəli olub, nəticədə digər dövlət qurumları kimi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi də qarşılıqlı, faydalı və bərabərhüquqlu münasibətlərə üstünlük verib. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən layiqincə davam etdirilən siyasət respublikamızı dünya miqyasında çox etibarlı, layiqli tərəfdaş ölkə kimi tanıdıb. Dünya birliyində də etiraf olunur ki, Azərbaycan dövlətinin həyata keçirdiyi xarici siyasəti açıq və müstəqildir.

Bütün bu amilləri nəzərə alaraq Müdafiə Nazirliyinin rəhbərliyi beynəlxalq əməkdaşlıq üçün ölkəmizdə yaradılmış münbit şəraitdən bəhrələnərək ikitərəfli, üçtərəfli və çoxtərəfli formatlarda dünya dövlətlərinin müvafiq qurumları ilə, çoxsaylı beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələr yaradıb. Bu əlaqələr daim inkişaf edir və öz bəhrəsini verir.

Respublikamız həm NATO ölkələri, həm də Rusiya ilə sıx hərbi əməkdaşlığa malikdir. Hazırda qeyri-rəsmi formada NATO standartları adlandırılan yüksək dünya standartlarının ordumuzda tətbiq edilməsi, eyni zamanda hərbçilərimizin beynəlxalq tədbirlərdə və təlimlərdə iştirakı vacib məsələrdəndir.

Azərbaycanın NATO ilə əməkdaşlığı respublikamızın xarici siyasət strategiyasının bir neçə əsas amili baxımından qiymətləndirilir. Birincisi, gənc Azərbaycan dövləti öz xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi əhəmiyyət verir. İkincisi, Azərbaycan beynəlxalq təşkilatların üzvü olan bütün dünya dövlətləri ilə əməkdaşlıqda maraqlıdır və çoxtərəfli diplomatiya siyasəti yeridir. Üçüncüsü, Azərbaycanın müharibə vəziyyətində olduğundan bütün vasitə və yollarla beynəlxalq aləmlə təmasdadır və onu müstəqillik problemlərimizin həllinə daha çox cəlb edir. Bu üç faktor Azərbaycanın NATO proqramına qoşulmasında əsas rol oynamışdır.

Müdafiə Nazirliyi beynəlxalq əməkdaşlıq və qazanılmış təcrübədən qarşılıqlı istifadə nəticəsində Azərbaycan Ordusunun döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, müasir hərbi texnika və silahlarla təchizi məsələsində region və digər dövlətlərlə münasibətləri prioritet məsələ kimi diqqətdə saxlayır, beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasına da öz töhfəsini verir. Bu baxımdan Azərbaycanın NATO ilə əməkdaşlığı, beynəlxalq sülhməramlı əməliyyatlara verdiyi töhfə və sülhməramlı əməliyyatlarda azərbaycanlı hərbçilərin peşəkarlığı xüsusilə qeyd edilməlidir.

NATO ilə fərdi tərəfdaşlıq üzrə əməliyyat planı, Planlaşdırma və Analiz Prosesi çərçivəsində nəzərdə tutulan tədbirləri reallaşdıran Azərbaycan Rusiya ilə də hərbi sahədə ciddi əlaqələrə malikdir. Hazırda Azərbaycan Ordusunun hərbi texnika və silahla təchizatı baxımından Rusiya ilə əməkdaşlığın inkişaf dövründədir. Bu gün Azərbaycan-Rusiya münasibətləri ildən-ilə yüksələn xətt üzrə inkişaf edir. Açıq və səmimi xarakter daşıyan əlaqələr sayəsində ölkələrimiz arasında bir çox məsələlərə dair konsensus və əməkdaşlığın gələcək inkişafına xidmət edəcək sistemli yanaşma mövcuddur. Bütövlükdə, dövlət başçılarının görüşləri sayəsində Azərbaycan-Rusiya münasibətləri sağlam məcrada inkişaf edir, iki dövlətin və onun xalqlarının iradəsini əks etdirir. Azərbaycanın müdafiə sahəsində genişmiqyaslı əməkdaşlıq etdiyi ölkələr sırasında da Rusiyanın xüsusi yeri var.

Azərbaycanın hərbi sahədə ən mühüm tərəfdaşı qardaş Türkiyə Respublikasıdır. Respublikamızın əsas tərəfdaşı olan Türkiyə beynəlxalq arenada daim Azərbaycanın müdafiəçisi və tərəfdaşı kimi çıxış edir. İkitərəfli əlaqələr hərbi sahəni də əhatə edir. Təsadüfi deyil ki, əvvəllər olduğu kimi 2018-cü ilin ötən beş ayında da Azərbaycan müdafiə sahəsində daha çox Türkiyə ilə əməkdaşlıq edib.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Türkiyə Respublikasının Milli Müdafiə naziri Nurəddin Caniklinin dəvəti ilə martın 28-də Ankaraya rəsmi səfəri də yuxarıda söylədiklərimizin bariz sübutudu. Sözügedən səfər Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə, o cümlədən, hərbi əməkdaşlıq sahəsində çoxtərəfli əlaqələrin olduğunu bir daha təsdiqləyir. Qeyd etmək yerinə düşər ki, Azərbaycan dövlət müstəqilliyini qazanmasından sonra iki ölkə arasında ortaq tarixi və mədəni əlaqələr əsasında çoxistiqamətli həmrəylik çərçivəsində Türkiyə-Azərbaycan münasibətləri sürətlə inkişaf edərək bir tərəfdaşlıq səviyyəsinə çatıb. Bu mənada Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında bağlanan bütün müqavilələr iki ölkə arasında siyasi, hərbi, iqtisadi, ticari, mədəni, elmi sahədə əlaqələrin bütün istiqamətlərini əhatə edən bir çərçivəyə malikdir. Bu müqavilələr, həmçinin iki ölkənin müdafiə sənayesi sahəsində əməkdaşlığına da müsbət töhfələr verməkdədir.

İkitərəfli formatda olan Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı, artıq üçtərəfli Azərbaycan-Türkiyə-Gürcüstan formatına qədəm qoyub. Belə görüşlər gələcəkdə yeni siyasi formatın yaranmasına zəmin yaradır. Məlumdur ki, hər 3 ölkə çox sıx əməkdaşlıq edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmiryol xətti və s. iri beynəlxalq əhəmiyyətli layihələr, həmçinin xarici siyasətdə uyğunluqlar bu ölkələrin daha yaxından əməkdaşlıq etməsini şərtləndirir. Müdafiə nazirlərinin son görüşü isə artıq hərbi sahədə genişmiqyaslı əməkdaşlıqdan xəbər verir.

Azərbaycanın hərbi sahədə və xarici siyasətdə mühüm tərəfdaşlarından biri də Pakistan İslam Respublikasıdır. Pakistan daim beynəlxalq arenada ölkəmizi dəstəkləyir və dəfələrlə açıq şəkildə bəyan edir ki, hər zaman Azərbaycanın yanındadır. Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Pakistan İslam Respublikası Birləşmiş Qərargahı arasında imzalanmış "İkitərəfli Hərbi Əməkdaşlıq Planı" da iki ölkə arasında hərbi müttəfiqlik effektini yaradır.

Bu il aprelin 26-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Çin Xalq Respublikasına səfəri də müasir silahlar siyahısında təkrar istifadə olunan hipersəs təyyarə, süni intellekt sistemləri, supersəs mühərriklər, lazer silahları, relsli aparatlar, peykləri və dronları məhv etmək üçün müxtəlif vasitələrin əldə edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycanın dünyanın aparıcı dövlətləri və beynəlxalq hərbi təşkilatlarla həyata keçirdiyi ikitərəfli, üçtərəfli və çoxtərəfli hərbi əməkdaşlığı müasir qloballaşan dünyada uğurlu nailiyyətlər və güclü hərbi potensiala malik olmaq üçün hərbi infrastrukturun beynəlxalq standartlara uyğun olaraq inkişaf etdirilməsini zəruri şərt kimi ortaya qoyur. Hərbi sahədə potensialın inkişaf etdirilməsi, elmi və praktiki biliklərə nail olunması, təcrübə mübadiləsinin genişləndirilməsi istiqamətində görülən işlər daim Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət mərkəzindədir və dövlət başçısı tərəfindən bu istiqamətdə tədbirlər davam etdirilməkdədir. Məqsəd müstəqilliyimizin qarantı olan Azərbaycan Ordusunun güc və imkanlarını genişləndirmək, sarsılmazlığına inamı artırmaqdır. Bu gün Azərbaycan xalqının Ali Baş Komandanına, ordusuna, onun güc və imkanlarına, sarsılmazlığına inamı böyükdür. Tezliklə bizi tarixi torpaqlarımıza qovuşduracaq Böyük Qələbə yuxarıda qeyd etdiklərimizin təsdiqi olacaq.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Müdafiə Nazirliyi və Mətbuat Şurasının birgə təşkil etdiyi "Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş "Hər birimiz Vətənə xidmət edirik" mövzusundakı yazı müsabiqəsinə təqdim edilir*

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirlər keçirilir

100 il əvvəl cümhuriyyətin elan edilməsi imperiya əsarətində ağır məşəqqətlərə məruz qalmış xalqımızın milli azadlıq mübarizəsinin nəticəsi, dərin tarixi kökləri olan milli dövlətçilik ənənələrinin davamı idi. Qarşısına müstəqil, azad və demokratik respublika qurmaq kimi şərəfli vəzifə qoymuş ilk milli hökumət cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirdi.



Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi respublikanın bütün idarə və təşkilatlarında olduğu kimi, Azərbaycan Ordusunun bütün bölmə və hərbi hissələrində də təntənə ilə qeyd edilir.

Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş "Əsrin böyük səadəti - Azərbaycan Xalq Cümhuriyyəti" adlı tədbir keçirildi.



Tədbirdə millət vəkilləri, Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, Fövqəladə Hallar Nazirliyinin Rəssamlar İttifaqının, hərbi hissələrin, xüsusi təyinatlı hərbi məktəblərin, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının, torpaqlarımızın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik tariximizdə yeri" adlı məruzəsində bildirdi ki, Azərbaycan qədim dövlətçilik tarixinə malikdir. "Bu bir həqiqətdir ki, tarixin hər dönəmində Azərbaycan fəxr edə biləcəyi bir dövlətə və dövlətçilik ənənəsinə malik olub. Bu şərəfli tarixi dövrlərdən biri də Şərqin ilk demokratik ölkəsi kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu zaman kəsiyidir. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, XX əsrin sonunda ikinci dəfə müstəqil olmaq şansı əldə edən Azərbaycanın qurduğu dövlət 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir".

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında geniş məlumat verən muzey rəisi qeyd etdi ki, 1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçürüldü, Bakı paytaxt elan olundu. "Noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu. İctimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın müxtəlif sahələrində quruculuq işləri daha da genişləndirildi...".

Millət vəkilləri Asim Mollazadə və Xanhüseyn Kazımlı Azərbaycan Xalq Cümhuriyyətinin çox mühüm qərarlar qəbul etməsindən, cəmiyyətin bütün sahələrində inkişafa nail olmaq məqsədilə mühüm layihələr həyata keçirməsindən, ölkənin ərazi bütövlüyünü çox yüksək səviyyədə təmin etməsindən danışaraq qeyd etdilər ki, 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi siyasi əqidəsindən və statusundan asılı olmayaraq bütün insanların ürəyincə olan bir addımdır.

Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağəli İbrahimov rəsm sənətindən, ölkə xaricində keçirilən sərgilərdən, dövlətimizin incəsənətə və incəsənət xadimlərinə göstərdiyi diqqət və qayğıdan söz açdı.

"Milli dövlətçilik tariximizə diqqət və ehtiram" adlı qısametrajlı sənədli film nümayiş olundu.

Sonda əməkdar rəssam Əşrəf Bayramovun Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Gəlin, bir yumruq olaq!" adlı rəsm sərgisində rəssamın milli mövzuda işlədiyi 28 əsəri nümayiş olundu. Əməkdar rəssama fəxri fərmanlar təqdim olundu. Ehtiyatda olan mayor Şəmistan Əlizamanlı hərbi vətənpərvərlik mahnıları ifa etdi.

* * *



"N" hərbi hissəsində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir keçirildi.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilərək, Dövlət himni səsləndirildi.

Polkovnik Mehman Kərimov bildirdi ki, Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən, 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verilərək bildirildi ki, Cümhuriyyətin, o cümlədən Azərbaycan Ordusunun 100 illik yubileyləri ölkəmizin hər bir guşəsində olduğu kimi, ordu sıralarında da geniş qeyd edilir. Bu gün müasir Azərbaycan Respublikasının Xalq Cümhuriyyətinin varislik prinsipinə əsaslandığı və ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu əsas götürərək dövlətçilik yolunda qətiyyətlə irəliləməsi xüsusi vurğulandı.



Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin artıq dünya dövlətləri arasında özünəməxsus yer tutduğunu, iqtisadi cəhətdən inkişaf etməkdə olan bir dövlətə çevrildiyini və bu gün respublikamızda dövlətçilik ənənələrinin ləyaqətlə qorunaraq gələcək nəsillərə ötürüldüyünü tədbir iştirakçılarının diqqətinə çatdırdılar.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin geniş konsert proqramı ilə başa çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Bağdad yaxınlığında partlayış: azı 8 nəfər həlak olub, 30 nəfər yaralanıb



İraqın paytaxtına yaxın rayonların birində baş verən partlayış nəticəsində azı 8 nəfər həlak olub, 30-dan çox insan isə xəsarət alıb.

İnsident Bağdaddan 50 kilometr şimalda yerləşən Tarmiyyə yaşayış məntəqəsində qeydə alınıb. Burada kamikadze dəfn mərasimi zamanı partlayıcı qurğunu işə salıb. Ölkədə fəaliyyət göstərən heç bir qruplaşma hələlik hadisənin məsuliyyətini öz üzərinə götürməyib.

### Əfqanıstanda hökumət qüvvələri "Taliban"ın hücumunun qarşısını alıb



Əfqanıstanın güc strukturları ABŞ Hərbi Hava Qüvvələrinin dəstəyi ilə "Taliban" hərəkatının Fərah şəhərinə hücumunun qarşısını ala bilib.

Bu barədə NATO-nun Əfqanıstandakı missiyasının komandanlığı məlumat yayıb.

"Fərah şəhəri hökumət qüvvələrinin nəzarəti altındadır. Əfqanıstanın güc strukturları ABŞ Hərbi Hava Qüvvələrinin dəstəyi ilə "Taliban" hərəkatına qarşı əks-hücuma keçib", - deyə missiyanın "Twitter" səhifəsində bildirilir.

Xatırladaq ki, mayın 15-də səhər saatlarında "Taliban" hərəkatının silahlıları Əfqanıstanın qərbində yerləşən Fərah vilayətinin eyni adlı administrativ mərkəzinə hücum etmişdi. Taliblər şəhərin bir neçə rayonunda irəliləməyə və Milli Təhlükəsizlik İdarəsinə yaxınlaşmağa müvəffəq olmuşdu.

### İndoneziya polis bölməsinə hücum olub



İndoneziyanın Sumatra adasında yerləşən polis bölməsinə hücum olub.

Hadisə nəticəsində bıçaq yarası almış bir təhlükəsizlik xidməti əməkdaşı həlak olub. Hücum edən dörd şəxs öldürülüb, daha iki nəfər isə yaralanıb.

Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

Qeyd edək ki, bazar və bazar ertəsi günləri İndoneziyanın Şərqi Yava bölgəsində təşkil edilən bombalı hücumlar nəticəsində 26 nəfər ölmüşdü. Hücumların İŞİD terror təşkilatı ilə əlaqəli Jamaah Anşarut Dulah adlı terror təşkilatı tərəfindən təşkil edildiyi müəyyənləşdirilmişdi. Bu hadisələrdən sonra paytaxt Cakarta, Şərqi Yava və Riau bölgələrində təhlükəsizlik tədbirləri gücləndirilmişdi.

### ABŞ-dan sonra Qvatemala da Qüdsdə səfirliyini açıb



Mayın 16-da - ABŞ öz səfirliyini Təl-Əvivdən Qüdsə köçürdükdən iki gün sonra bu şəhərdə Qvatemala səfirliyinin açılış mərasimi baş tutub.

Qüdsün qərb hissəsində yerləşən yeni səfirliyin açılış mərasimində İsrailin Baş naziri Binyamin Netanyahu və Qvatemala Prezidenti Cimmi Morales iştirak ediblər. Mərasim zamanı Netanyahu Qvatemalanın 70 il bundan öncə ABŞ-dan sonra İsraili müstəqil dövlət kimi tanıyan ikinci ölkə olduğunu qeyd edib.

Xatırladaq ki, mayın 14-də Qüdsdə ABŞ-ın yeni səfirliyinin açılış mərasimi keçirilib. Mərasimin vaxtı işğal olunmuş Fələstin torpaqlarında İsrail dövlətinin qurulmasının ildönümü gününə salınıb. Həmin gün Qəzza sektorunun sərhədi boyu fələstinlilərin miqyaslı etiraz aksiyaları başlayıb. İsrail ordusunun etirazçılara atəş açması nəticəsində 60 nəfərdən çox fələstinli həlak olub, 2 minədək insan yaralanıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Güləş üzrə hərbçilərin 33-cü dünya çempionatı

*Mayın 15-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində, Mərkəzi Ordu İdman Klubunun idman zalında hərbçilər arasında güləş üzrə 33-cü dünya çempionatının təntənəli açılış mərasimi olub.*

Mərasimdə Beynəlxalq Hərbi İdman Şurasının (CISM) rəsmi nümayəndəsi Kim Hyun Soo, Rusiya Federasiyası müdafiə nazirinin müavini Nikolay Pankov, Rusiya Güləş Federasiyasının prezidenti Mixail Mamiaşvili, çempionatın təşkilat komitəsinin sədr müavini Roman Kudryavtsev, hakimlər briqadasının sədri Vladimir Qriqoryev, Dünya Güləş Birliyinin (UWW) rəsmi nümayəndəsi Uve Manz, CISM-in güləş komitəsinin sədri Marko Kopella, təşkilat komitəsinin vitse-sədri Oleq Parxomenko, CISM-in Qafqaz, Qara dəniz və Balkanlar üzrə koordinatoru, ehtiyatda olan polkovnik Nevzat Varol, müxtəlif idman təşkilatlarının nümayəndələri, veteran idmançılar, Rusiya Federasiyası MOİK-in üzvləri, iştirakçı ölkələrin heyət rəhbərləri, yarışlarda iştirak edəcək komandaların üzvləri, hakimlər, məşqçilər və mətbuat nümayəndələri iştirak ediblər.

Açılış mərasimində çıxış edənlər yarışın əhəmiyyətindən danışıb və idmançılara uğurlar arzulayıblar.

Təntənəli mərasimdən sonra qonaqlara konsert proqramı təqdim olunub.

* * *

Moskva şəhərində keçirilən hərbçilər arasında güləş üzrə 33-cü dünya çempionatının birinci yarış günündə Azərbaycan təmsilçiləri ilk medallarını qazanıblar.

Rusiya Federasiyası Mərkəzi Ordu İdman Klubunun idman zalında keçirilən yarışlarda Azərbaycan idmançılarından döşək üzərinə ilk olaraq hərbçimiz Sona Tumarxanova çıxıb.

50 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Monqolustan güləşçisi N.Azjarqala 12:1 hesabı ilə qalib gələrək çempionatda üçüncü yeri tutub.






Kişilər arasında yarışda isə Azərbaycan idmançılarından döşək üzərinə Mərkəzi Ordu İdman Klubunun (MOİK) təmsilçisi Ağahüseyn Mustafayev çıxıb. 65 kiloqram çəki dərəcəsində mübarizə aparan güləşçimiz İran idmançısı Biyabani Peymana qalib gələrək çempionatda bürünc medal qazanıb.

Dünya çempionatında milli komandamızın aktivinə üçüncü bürünc medalı Coşqun Əzimov yazdırıb. MOİK-in üzvü bürünc medal uğrunda görüşdə Macarıstan təmsilçisi Lukas Botondu 10:0 hesabı ilə məğlub edərək təmiz qələbə qazanıb.

Bununla da hərbçilərimiz yarışların ikinci günündə üç bürünc medal qazanıblar.

* * *

Moskva şəhərində keçirilən hərbçilər arasında güləş üzrə 33-cü dünya çempionatının üçüncü günündə komandamız ilk qızıl medalı qazanıb.

Rusiya Federasiyası Mərkəzi Ordu İdman Klubunun idman zalında keçirilən çempionatda güləşin sərbəst növündə qadınlar arasında 65 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Ceyla Nağızadə ardıcıl olaraq Monqolustan və Qazaxıstan idmançılarına qalib gələrək qızıl medal qazanaraq dünya çempionu adına layiq görülüb.

Güləşin yunan-Roma növü üzrə yarışlarda 60 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Murad Məmmədov əvvəlcə macar rəqibi B.Kovaça, sonra isə ermənistanlı güləşçi A.Manuçaryana qalib gələrək finala yüksəlib.

Digər təmsilçimiz 72 kiloqram çəki dərəcəsində çıxış edən Ülvi Qənizadə Qazaxıstan idmançısı İbrahim Maqomedov və Ermənistan güləşçisi Armen Hakopyana qalib gələrək finala çıxıb.




* * *

Moskva şəhərində hərbçilər arasında güləş üzrə keçirilən 33-cü dünya çempionatında komandamız daha iki medal qazanıb.

Rusiya Federasiyası Mərkəzi Ordu İdman Klubunun idman zalında keçirilən yarışlarda güləşin sərbəst növündə döşək üzərinə daha iki idmançımız çıxıb.

86 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Kənan Əliyev ardıcıl olaraq parlaq qələbələr qazanaraq finala yüksəlib. Güləşçimiz son qarşılaşmada yalnız Rusiya təmsilçisinə 1 xal hesabı ilə uduzaraq çempionatın gümüş medalını qazanıb.

Daha sonra 97 kiloqram çəki dərəcəsində yarışlara qatılan MOİK nümayəndəsi Roman Bəkirov 3-cü yer uğrunda mübarizədə Kolumbiya idmançısı üzərində təmiz qələbə qazanaraq bürünc medala sahib olub.

Beləliklə, hərbçilər arasında keçirilən güləş çempionatında komandamız bir qızıl, bir gümüş və 4 bürünc medal olmaqla ümumilikdə 6 medal qazanıb.

Qeyd edək ki, mayın 14-dən start götürən çempionat mayın 20-dək davam edəcəkdir.

**AZƏRTAC**

# Unudulmayan tarix

*9 May Qələbə Günü ilə bağlı hərbi orkestrlərin çıxışları artıq ənənəvi hal alıb. 3 ildir ki, şəhərimizin sakinləri Qələbə Gününü, qələbə bayramını musiqi ilə qarşılayırlar. Hərbi orkestrin səsləndirdiyi mahnıları maraqla dinləyən bir neçə şəhər sakini ilə həmsöhbət oluruq.*



Günel Məmmədova Bakı Slavyan Liseyində Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edir. Qazax rayonunun Aşağı Əskipara kəndindən olan Günel söhbət zamanı bildirdi ki, bu gün torpaqlarımızın 20 faizi erməni işğalındadı. "Belə tədbirlərin keçirilməsinin əhəmiyyəti böyükdür və bizi də düşmən üzərində qələbəyə səsləyir. Babalarımızın qanı bahasına başa gələn 9 May Qələbə Gününü hər il xalqımız böyük qürurla qeyd edir. Bu qələbənin qazanılmasında xalqımızın böyük əməyi var. Mən bu barədə tələbələrimə geniş məlumatlar çatdırıram. Arzulayıram ki, tezliklə torpaqlarımız işğaldan azad edilsin, xalqımız Böyük Qələbə gününü də belə təntənə ilə qeyd etsin.

Öyrənirəm ki, Günelin ata və ana babası Böyük Vətən müharibəsində iştirak edib. Nənəsinin qardaşları Kerç yarımadası uğrunda gedən döyüşlərdə itkin düşüb. Babası leytenant Məmməd Əhmədov təyyarəçi olub. Neçə-neçə düşmənin canlı qüvvəsini və texnikasını məhv edib. Döyüşdə göstərdiyi igidliklərə görə çoxlu orden və medallarla təltif olunub. Görkəmli Xalq yazıçısı İsmayıl Şıxlının "Cəbhə gündəliyi" əsərində Məmməd Əhmədova həsr olunmuş yazı var. Günel babasına həsr etdiyi müharibənin ağrı-acıları əks olunan "Nənəmin sandığı" hekayəsini yazıb. Həmin hekayə bir neçə il öncə dövri mətbuatda dərc olunub.

Gültəkin Rəhimova ibtidai sinif müəllimi işləyir. Hər il 9 May Qələbə Günündə həyat yoldaşı, uşaqları ilə birlikdə Dənizkənarı bulvara gəzməyə gəldiyini deyən Gültəkin hər iki babasının Böyük Vətən müharibəsində sona qədər döyüşərək Berlinə qədər gedib çıxdıqlarını söyləyir. "Son illərdə 9 may günü rast gəldiyimiz hərbi orkestrlərin çıxışlarına biz də maraqla qulaq asırıq. Çox gözəl ənənə qoyulub. Belə tədbirlər gənclərimizdə hərbi vətənpərvərlik tərbiyəsinə böyük təsir edir, onlarda Vətənə, torpağa bağlılıq hissləri aşılayır. Arzulayıram ki, xalqımız növbəti ildə 9 May günü ilə bərabər Böyük Qələbəmizi bayram etsin."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Dağlıq Qarabağ münaqişəsi Tbilisidə keçirilən təhlükəsizlik forumunda diqqət mərkəzində olub

AZƏRTAC xəbər verir ki, forumun Cənubi Qafqazda təhlükəsizlik problemlərinə həsr olunmuş sessiyasında regionda mövcud olan problemlər geniş müzakirə olunub.

Beynəlxalq Böhran Qrupunun Avropa və Mərkəzi Asiya üzrə nümayəndəsi Maqdalena Qrono Cənubi Qafqazda mövcud olan münaqişələrdən danışıb, Dağlıq Qarabağ münaqişəsinin regionda ciddi təhlükə olduğunu söyləyib. O deyib ki, problemin sülh yolu ilə həllində diplomatik danışıqlarla yanaşı, tərəflərin bir-birinə yaxınlaşdırılması üçün digər formatlardan da istifadə olunmalıdır. Bunun üçün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə daha fəal cəlb olunmalıdır.


| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Mahmud MÖHBALIYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 350 Nüsxə 3525 |